# Selin fəsadları aradan qaldırıldı

Məlumdur ki, bu ilin may iyun aylarında respublikamızın bütün bölgələrinə, o cümlədən Qəbələ rayonuna da iqlim normasından artıq yağış yağmışdır. Qeyi-sabit iqlim və yağışların intensivliyi nəticəsində respublikamızın bir sıra bölgələrində kənd təsərrüfatına, infrastruktura ciddi ziyan dəymiş, yaşayış məntəqələrində, yollarda torpaq sürüşməsi aktivləşmişdir.

Rayonumuzda da yağıntının normadan artıq olması fəsadlara yol açmışdır. Belə ki, güclü küləklə müşayət olunan yağış nəticəsində bir sıra taxıl əkini sahələrində yetişmək üzrə olan bitkilər yatmışdır ki, bu da sözsüz ki, məhsulun kəmiyyət və keyfiyyətinə təsirsiz ötüşməyəcəkdir. Heyvandarlığın yem bazasının əsasını təşkil edən ot və yonca sahələrinin də vaxtında və keyfiyyətlə biçilib götürülməsinə yağışların uzun müddətli olması mənfi təsir göstərir.

Rayonumuzda yaşayış məntəqələri və yol infrastrukturuna yağış nəticəsində çox ciddi ziyan dəyməsə də müəyyən ərazilərdə həyətyanı sahələrə meyvə bağlarına və əkin sahələrinə su düşməsi, yolların sel nəticəsində yuyulması halları olmuşdur ki, nəticədə yaranmış narahatlıq rayonun əlaqədar qurumları tərəfindən qısa müddətdə aradan qaldırılmışdır.

Rayonun Xırxatala kəndi sel sularına daha çox məruz qalan ərazidə yerləşir. Elə iyun ayının ortalarında güclü yağışın yağması nəticəsində bu kəndin Şərq hissəsində bir sıra bağ sahələrini su basmış, kəndin əsas yolu olan, camaatın «Əşrəf yolu» adlandırdığı yolun bir hissəsi və Həmzəli—Xırxatala yolu keçilməz vəziyyətə düşmüşdü.

Rayon icra hakimiyyətinin vəziyyətə vaxtında müdaxiləsi nəticəsində rayon suvarma sistemləri idarəsi, 11 Saylı Yol Tikintisi və İstismarı İdarəsi, Cığatelli Bələdiyyəsi və rayon icra hakimiyyətinin Xırxatala Kənd İnzibati Ərazisi üzrə Nümayəndəliyi, yağış sularının vurduğu ziyanı aradan qaldırmaq, avtomobil yolunu bərpa etmək üçün səfərbər edilmişlər. İşin operativ təşkili nəticəsində əraziyə xeyli sayda lazımi texnika və canlı qüvvə cəlb olunmuşdur. Qısa müddətdə yağış suyunun qarşısı kəsilərək Həmzəlli çayının məcrasına salınmışdır. Kəndə gedən yolun sel nəticəsində dağılmış hissəsi bərpa olunmuşdur. Ancaq bununla kifayətlənilməmişdir. Suvarma sistemləri idarəsinin və 11 Saylı Yol Tikintisi və İstismarı İdarəsinin texnikalarının yardımı ilə kəndə gedən Həmzəli—Xırxatala və «Əşrəf yolu»nun təxminən 10 kilometrlik ərazisinə qum-çınqıl tökülmüş, hamarlanmışdır. Hazırda hər iki yolda əvvəlki çala-çökəklərdən əsər-əlamət yoxdur.

Bu yollardan istifadə edən kəndlərin camaatı bu xeyirxah işə görə rayon icra hakimiyyətinin, rayon suvarma sistemləri və 11 Saylı Yol Tikintisi və İstismar İdarələrinin rəhbərliyinə, Həmzəli Bələdiyyəsinə, Xırxatala, Həmzəli və Cığatelli kənd inzibati ərazi nümayəndəliklərinə öz minnətdarlıqlarını bildirmişlər.

**Qüdrət Səmədov.**

# Müdrik sözlər toplusu xəzinəsindən

✦Dözmək, ədalətsizliyə qarşı bir hünərdir.

✦Xasiyyət yeriş deyil ki, dəyişilə.

✦Sənə bağışlanan həyatın
bilməsən qiymətin,
Yoxdur o həyatda sənin
nə yerin, nə də hörmətin

✦Vicdana nökər olmaq, vicdan qarşısında başı aşağı olmaqdan qiymətlidir.

✦Həyasızlıq, tanrının verdiyi ömürdən qabaqkı süqutdur.

✦Etibarsız insan, həyatının düşmənidir.

✦İnsanların nüfuzu, abır həya və sadəliyidir.

✦Şüurlu vicdan etibarın və sağlam ruhun şah evidir.

✦İnsanları basdırırlar, adamları isə dəfn edirlər.

✦Bir dəfə qürrələnmək, beş dəfə varlığı itirmək deməkdir.

Ürəyində sevgiyə, qəlbində tanrıya yer versən ürəyin sağlam olar, qəlbin isə pak.

✦Nə iş görürsənsə, allah görürmüş kimi hiss ell.

✦Oğurluq, yalan, pis nəfis insanların tələsidir.

✦Səhfini etiraf etməyi bacaranlar bağışlamağı da bacarırlar.

✦Təmənnasız kömək dost üçün hədiyyədir.

✦Sevgisi və məhəbbəti olmayanlar həyatın ünsürləridir.

✦Dost evi könüllərdədir.

✦Həyat, yazılmamış senarinin oynanılması, qurtarmaq bilməyən səhnədir, biz də aktyorlarıyıq.

✦Mənim üçün ən yaxın adamlar özlərinə hörmət qoymağı bacaranlardır.

✦Sadəlik gözəlliyin özüdür.

✦Qəlbində və ürəyində olmayanı axtarma.

✦İsmətli qadının etibarına təslim olmaqdan qorxma, çünki, onun etibarını tərbiyə edən onun ismətidir.

✦Korlara kor deməyək, gözləri olub, görməyi bacarmayanlara kor deyək.

Baxmağa hələ görmək deməzlər, baxmaq istiqamətləndirir, görmək isə kamilləşdirir.

✦Düz dedi ki, mən sınaram əyilmərəm, əyri də dedi ki, mən də sınaram düzəlmərəm.

✦Naümid vücudlar, ölücanlı cəsətdirlər.

✦Ömrü boyu qara çörək yemək, qara gün görməkdən yaxşıdır.

**Teymur Əhmədov,**
**Tüntül kəndi.**

# Yeni kitablar

Kitab xalqın həyatına və məişətinə möhkəm daxil olmuşdur. O, xalqın mühüm mədəniyyət mənbələrindən biri , qüdrətli tərbiyə vasitəsidir.

Bəşəriyyətin ən mütərəqqi fikirli qabaqcıl adamları kitab haqqında böyük məhəbbətlə danışmışlar.

"Kitabsız bir ömrün nə mənası var". (Səməd Vurğun).

"Heç bir kompyuter kitabı əvəz edə bilməz". (Mehriban Əliyeva).

"Kitablar özünüzə və başqalarına hörmət etməyi öyrədəcək, ürəyi ağıl, dünya və insanlıq sevgisiylə dolduracaq". (Maksim Gorki).

"Kitablar-zamanın dalğalarında üzən və öz dəyərli yükünü nəsillərdən - nəsillərə daşıyan fikir gəmisidir". (Frensis Bekon).

Kitab haqqında dəyərli fikirlər nə qədər yazılsa da bitmək bilməz. Gəlin kitab oxuyaq və dünyagörüşümüzü artıraq.

Biz kitabxanaçılar oxucunun istək və arzusunu yerinə yetirmək üçün əlimizdən gələn qədər köməklik etməyə çalışırıq. Oxucuları kitabxanamızda görməkdən məmnunuq.

Hal-hazırda kitabxanamıza yeni kitablar daxil olmuşdur. Bu dəfə kitabxanamıza 5 clddə Milli Azərbaycan Ensklopediyası, gözdən əlillər üçün Azərbaycan dilinə tərcümə edilmiş 7 cilddə Qurani-Kərim, Xalid Hüseynli "Dağlardan səda gəldi", Toğrul Ələkbər və İlahə Orucova "Karyera A-dan Z-yə və ya Əliabbas iş axtarışında" (qeyd edək bu kitabda iş tapmağın yollarından bəhs olunur), Çingiz Salah "Üreyimin katibiyəm", Ağasəlim Əmri "Hicran gecəsi", Hüseyn Bağırov, Qara Mustafayev, Azərçin Muradov "Afrikanın bioloji müxtəlifliyi" və s. kitablar daxil olmuşdur.

Kitabsevər oxucularımız, sizi kitaxnanamıza dəvət edirik.

**Günel Qarayeva,**
**mərkəzi kitabxananın işçisi.**


## «Qəbələ» qəzetinə

**2016-cı ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.


## ELANLAR

3 avqust 2006-cı il tarixdə Kürd kənd sakini **Həşimov Saiq Abduləh oğluna və ailə üzvlərinə** məxsus kənd təsərrüfatı təyinatlı torpaq sahəsi üçün (reyestr nömrəsi 40601000131, qeydiyyat nömrəsi 190600559) Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən verilmiş seriyası NH 0001034 nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 14 oktyabr 2011-ci il tarixdə (reystr № 406013009107) Dizaxlı kənd sakini **Osmanova Mərziyə Aslan qızına** verilmiş **Torpaq sahəsinin planı və ölcüsü** və 15 oktyabr 2011-ci il tarixli qeydiyyatla (qeydiyyat № (911005255) seriya MA, 0287264 nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Payon İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixli qərarla Dandıq kənd sakini **Kərimov Nəsib Yusif oğlunun və ailə üzvlərinin** adına verilmiş JN-005 F №-li (kodu 40615058) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixdə 19 saylı qərarla Vəndam qəsəbə (kənd sakini) **Sədrəzənov Arif Mirağa oğlunun və ailə üzvlərinin** adına verilmiş JN 1891A nömrəli (kodu 40600048) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 may 1998-ci il tarixdə 9 №-li qərarla Mirzəbəyli kənd sakini **Qasımov Məzahir Əkbər oğlunun və ailə üzvlərinin** adına veilmiş JN 151 nömrəli (kodu 40613018) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasıı tərəfindən 15 may 1998-ci il tarixdə 9 №-li qərarla Corlu kənd sakini **Məsimov Cumar Şamil oğlunun və ailə üzvlərinin** adına verilmiş JN 137 nömrəli (kodu 40613028) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdii uçn etibarsz saıyılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 may 1998-ci il tarixdə 9 №-li qərarla Corlu kənd sakini **Məsimov Cəllad Əsgər oğlunun və ailə üzvlərinin** adına verilmiş JN 134 nömrəli (kodu 40613028) **Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixdə 10 №-li qərarla Tüntül kənd sakini **Mustafayeva Ceyran Məmmədcan qızının və ailə üzvlərinin** adına verilmiş JN 460 nömrəli (kodu 40616018) **Torpağa mülkiyyət hüqüqüna dair Dövlət Aktı** itdiyi üçün etibarsfz sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 dekabr 2002-ci il tarixdə 17 saylı qərarla Nohurqışlaq kənd sakini **Əzizov Araz Qələmdar oğlunun və ailə üzvlərinin** adına verilmiş JN 149 nömrəli (kodu 40616028) **Torpağa mülkiyyət hüququna dair Dölət aktı** itdiyi üçün etibarsız sayılır.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.

Oxucu məktubları geri qaytarılmır.